*«Kəndlərimiz boşalır» adlı yazım «Mədəni-maarif» jurnalında çap olunandan sonra dostlar, tanışlar mənə zəng çalıb çox vacib bir məsələ barədə söhbət açdığıma görə razılıqlarını bildirdilər. Tanışlardan biri isə yolda mənə rast gəlib dedi:*

*-Yazını oxudum, xoşuma gəldi. Ancaq nə xeyri, elə bil dünyanın dərdi sizə qalıb. Kəndlər boşalır, qoy boşalsın da, qabağını tutmayacaqsan ki?!*

Tanışımın qaldırdığım problemə bu cür münasibət bəsləməsi məni təəssüfləndirsə də, kefimə dəymədi. Çünki yaşadığımız zəmanədə adamların çoxu hər şeyə biganə olublar. Bunun da bir sıra səbəbləri var. Ən başlıcası isə insanların müsəlmançılıqdan uzaq düşməsidir.

Müqəddəs İslam dinində hər bir müsəlmana üsuli-dinin (5 bənd) və furui-dinin (10 bənd) bəndlərinə əməl etmək vacib bilinmişdir. Ancaq ölkəmizdə yaşayan müsəlmanların bu vacibi əməllərdən xəbərləri yoxdur. Furui-dinin 7-ci və 8-ci bəndləri, yəni əmr və məruş (yaxşı işlərə çağırış, təşviq), nəhy əz münkər (pis işlərdən çəkindirmək, qaytarmaq) hər bir müsəlmanın qarşısında mühüm vəzifələr qoyur. İnsan özü yaxşı, qadir allahın bəyəndiyi işləri görməklə yanaşı, digər müsəlmanları da bu cür işlərə təşviq etməli, həvəsləndirməlidir. Eyni zamanda hər bir şəxs özü pis işləri görməkdən imtina etməklə, başqalarını da ulu Tanrının bəyənmədiyi işləri yerinə yetirməkdən çəkindirməlidir. Zəmanəmizdə insanların çoxu İslam dininin bu vacib əməllərini bilmir, bilənlər də susmağı, biganəliyi, laqeyd olmağı öz meyarları ilə üstün hesab edirlər (onsuz da sözümüzə baxan kimdir). Ancaq İslam əxlaqının təbliği gələcək xoşbəxt cəmiyyətin möhkəm təməl üzərində qurulması deməkdir. Çünki yetmiş il müddətində İslam dininə qarşı aparılan amansız mübarizə insanları haqq yolundan döndərmiş, onları mənəvi cəhətdən şikəst halına salmışdır. Buna görə də dövrümüzdə İslam əxlaqının təbliği ən ümdə vəzifə kimi qarşıda durur. Bu iş isə birinci növbədə təhsil, mədəni-maarif, səhiyyə sahələrində çalışanların əsas



# GÖZÜ YOLDA QALAN VAR...

vəzifə borclarından biri olmalıdır.

Tanışımın məndən bu cür hadisələrə biganə olmağı tələb etməsi bir xeyli vaxt ürəyimdə gəzdirdiyim bəzi fikirləri qələmə almağa tələsdirdi. Hələ keçmiş hökumətin zamanında Azərbaycandan Sovetlər İttifaqının ayrı-ayrı regionlarına axın var idi. Gənclərdən bəziləri hərbi xidmətdən sonra gəlib valideyinlərinə dəyir, iş tapa bilmədiklərinə görə geri qayıdırdılar. Rusiyada və digər xarici ölkələrdə yaşayanlarla əlaqə son illərdə dövlət səviyyəsində xeyli yaxşılaşmışdır. Xarici ölkələrin əksəriyyətində yaşayan azərbaycanlılar müxtəlif cəmiyyətlərdə fəaliyyət göstərirlər. Hər il dekabr ayının 31-i Dünya azərbaycanlılarının həmrəyliyi günü kimi dövlət səviyyəsində qeyd olunur. 2001-ci ilin 9-10 noyabr tarixlərində ölkəmizin paytaxtı Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Xaricdə yaşayan soydaşlarımızı şərti olaraq iki yerə ayırmaq olar: 1. Doğma yurdla əlaqə saxlayanlar. 2. Vətənlə əlaqəsi kəsilənlər.

Əlbəttə, birincilər xarici ölkələrdə ağlı, kamalı, biliyi, bacarığı ilə müvəffəqiyyət qazananlardır ki, imkan tapıb ildə, heç olmasa, bir dəfə valideynlərinə, doğmalarına baş çəkir, maddi və mənəvi cəhətdən onlara dayaq dururlar. Belələri barədə mətbuatda tez-tez söhbət açılır, onların yaxşı işi təqdir edilir. Lakin ikincilər isə başqa yol tutur, müəyyən müddətdən sonra valideynlər, doğma yurd yaddan çıxır, unudulur, onların öz həyatları da doğmalarına pünhan qalır, nə işlə məşğul olduqları, gələcək taleləri gözəgörünməz sirli aləmə çevrilir. Ancaq nə üçün belə olur, bunlara səbə nədir?! Günahkar kimdir?! Min bir əziyyətlə övlad böyüdəsən, sənin hayına qalmalı vaxtda birdən-birə itirəsən. Bu, böyük dərddir. Belə adamlar barədə söhbət açmaq olduqca vacibdir. Çünki bəlkə başqaları oxuyub ibrət götürələr. Qoy oxucular bu cür hadisələrə münasibət bildirsinlər.

Balağa kişi Bacı xala ilə on övlad böyütmüşdü. Dörd oğlan və altı qız. Ailənin mayası zəhmətdən yoğrulmuşdu. Balağa kişi ömrünü qoyunçuluğa sərf etmişdi. 40 ildən artıq sovxozda çoban işləmiş, yayı doğma yurdunda dağlar arasında, qışı isə qışlaqda keçirmişdi. Balalarını ailə sahibi etmək üçün hər cür çətinliyə dözmüşdü. Bacı xala işdə, əməkdə heç də ərindən geridə qalmamış, əkində, biçində fərqlənmiş, ev işlərində də balalarına nümunəvi ana olmuşdu. Bunlar böyüdükcə valideynlərin qayğıları artmış, oğlanları üçün qonşulara elçi düşmüş, qızlarını da təmiz adla ər evinə gəlin köçürmüşdülər. Ancaq sonbeşikdən başqa. Axırıncı uşaq olan Səfərəli hərbi xidməti başa vurdu, kəndə döndü. El adətincə hamı başına yığıldı. Bir müddətdən sonra qazanc məqsədilə Rusiyaya üz tutdu. Arada kəndə qayıtdı. Valideyinlər evlənmək söhbəti ortaya atanda möhlət istədi, yenə Rusiyaya yollandı və bir də geri dönmədi. Ata xəstələndi, tezliklə bu dünyanı tərk edəcəyini dərk etdi. Övladları, qohumlar başına yığıldı. Ancaq atanın gözləri sonuncunu axtarırdı. Xabarovsk şəhərində yaşayan Səfərəliyə xəbər göndərdilər ki, atası xəstədir, onu istəyir. Övladın cavabı ürəkağrıdıcı olmuşdu:

-O biri övladları yanındadır da, məni neyləyir?!

Balağa kişi gözləri qapıya zillənmiş halda ömrünü başa vurdu. Oğul yasa da gəlmədi. Bir müddətdən sonra Bacı xala da xəstələndi, gözləri yol çəkdi, o da oğul yolunu gözləyə-gözləyə dünyasını dəyişdi.

Aradan on ilə yaxın vaxt keçir. Ancaq Səfərəlidən heç bir xəbər-ətər yoxdur.

Etiraf etməliyik ki, cəmiyyətimizdə insanların mənəvi cəhətdən kamilləşməsi üçün çox az

iş görülür. Əslində lap kiçik yaşlarından övladların valideyn boynundakı haqları və əksinə övladların valideynlər qarşısındakı borcları uşaqlara başa salınmalı, təlqin edilməlidir. Hər bir valideyn ilk növbədə ulu Tanrı qarşısında borcunu yerinə yetirməlidir ki, övladı da ondan nümunə götürsün, ibrət alsın. Yuxarıda təsvir etdiyimiz hadisədə günahkar təkcə valideynlərinin yas məclisinə gəlməyən, bəlkə də gəlməyə imkanı olmayan oğulmu?! Bu suala cavab vermək olduqca çətindir. Məni isə bir insan kimi ən çox narahat edən həmin gəncin gələcək həyatı, ömrünün sonu, daha doğrusu, hamının qaçmaq istədiyi, amma heç kimin qaça bilmədiyi ölümü necə qarşılamasıdır.

İnsan ən çox real həyatda gördüklərinə inanır və bunlar barədə fikir yürütməyə mənən haqqı çatır. S. on ildən artıq idi ki, Rusiyada yaşayırdı və hərdənbir anasına pul da göndərirdi. Anası dəfələrlə xəbər göndərəndən sonra S. kəndə qayıtdı. İnsafən yaxşı gəlmişdi. Yaxınlarına hədiyyələr almışdı. Təzə «Jiquli» maşınını gətirib Bakıda qohumunun həyətində saxlamışdı. Qohumlar, qonşular onun başına yığışdılar. Anası, qardaş və bacıları sevinc içərisində idi. Bir neçə gündən sonra kiçik bacısının da toyu oldu. Aradan iki həftə keçdi. Xəbər yayıldı ki, S.-ya M. kişinin qızı N-nı alıblar. El adətilə əvvəlcə qız qapısına elçi getdi, sonra da nişan mərasimi oldu. Həm oğlan tərəfinin, həm qız tərəfinin, həm də qonşularının iştirakı ilə nişan mərasimi yüksək səviyyədə qeyd olundu. S. bir aydan artıq kənddə qaldı və qərara gəldilər ki, gələn il toy olsun. O, Rusiyaya-əvvəlki iş yerinə qayıtdı.

Aradan bir il ötdü. Bayramlarda S-nın anası təzə gəlininə pay və hədiyyələr apardı. Ancaq S-dan heç bir xəbər çıxmadı. Bir neçə il də keçdi. Qohumlar arasında soyuqluq yarandı. S-nın dalınca Rusiyaya göndərilən xəbərlərin heç bir təsiri olmadı, o, geri qayıtmadı. Deyilənə görə, özündən çox yaşlı olan bir qadınla yaşayır. Nişan günündən on ildən artıq vaxt keçir. Barmağına üzük taxdığı qız ondan ümidini itirib, gözünü yoldan çəkib. Bu nişan mərasimi olmasaydı, yəqin ki, başqası ilə ailə qurmuşdu, övlad sahibi olmuşdu.

Ana məhəbbəti, ana inamı sonsuzdur. S-nı min bir əziyyətlə böyüdən ananın gözləri yoldadır, nə vaxtsa oğlunun qayıdacağına inanır. Kaş belə olsun!?

Mən ucqar dağ kəndində baş verən iki hadisəni qələmə almağa çalışdım. Bu gün ailəsini, körpə uşaqlarını burada qoyub, xarici ölkələrdə yaşayan onlarla, yüzlərlə adam vardır. Yəni bir-iki ailə yox, yüzlərlə ailənin gözləri yol çəkir. Gözü yolda qalanların sayı çox-çoxdur. Bütün bunlar isə zəmanəmizin ürəkağrıdan hadisələridir.

İnsan həyatı müxtəlif mərhələlərə bölünür. Gənclik illəri onun ən qaynar çağıdır. Kim gəncliyinin qədrini bilirsə, mənalı keçirirsə, onun hər bir anından səmərəli istifadə edirsə, ömrünün sonrakı mərhələlərində mənəvi cəhətdən rahatlıq tapıb, təəssüf hissi keçirmir. İnsanlıq dünyasının günəşi Əmirəlmöminin Əli əleyhissəlam kəlamlarının birində bu barədə yığcam şəkildə çox gözəl deyir: «Ağıllı gənclik xoşbəxt qocalıqdır». Bəli, insan ilk gənclik illərindən Ulu Tanrının, valideynlərinin, müəllimlərinin, bir sözlə, cəmiyyətin qarşısındakı borclarını ləyaqətlə yerinə yetirə bilibsə, ahıllıq, qocalıq çağlarında xatirələrə dalanda sevinir, mənəvi cəhətdən kamilləşdiyini, ucaldığını dərk edir. İnsanın qocalması təbii hadisədir. Qocalığa isə, hər şeydən əvvəl, mənəvi rahatlıq və qayğı lazımdır. Bu da, ilk növbədə insanın özündən, onu əhatə edən mühitdən və yaşadığı cəmiyyətdən asılıdır. İstərdim ki, oxucular bu kiçik qeydlərimə münasibət bildirsinlər, bugünkü həyatımıza, gələcəyimizə biganə qalmasınlar.

**Hacı Bayram**

LERİK rayonu